İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA
MƏRKƏZİ

May 2017

# AZƏRBAYCAN İQTİSADİ İSLAHATLAR İCMALI



# MÜNDƏRİCAT

1.“VALYUTA TƏNZİMİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR ..........3

2.ÖDƏMƏ QABİLİYYƏTİNİ İTİRMİŞ BANKLARIN REZOLYUSİYASI VƏ SAĞLAMLAŞDIRMA TƏDBİRLƏRİ ÇƏRÇİVƏSİNDƏ QEYRİ-İŞLƏK (TOKSİK) AKTİVLƏRİN TƏQDİM EDİLMƏSİ QAYDASI..........6

3.2017 - Cİ İLDƏ AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT FONDUNUN VƏSAİTİNDƏN İSTİFADƏNİN ƏSAS İSTİQAMƏTLƏRİ (PROQRAMI) VƏ İNVESTİSİYA SİYASƏTİ..........8

# "VALYUTA TƏNZİMİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR



"Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 649-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidenti tərəfindən müvafiq Fərman imzalanmışdır.

Həyata keçirilən dəyişikliklər çərçivəsində sözügedən Qanunun 12-10.1-ci maddəsində nəzərdə tutulmuş girov vəsaitinin məbləği olaraq Bakı şəhəri üzrə 50 000 (əlli min) manat və 50 000 (əlli min) ABŞ dolları; Abşeron rayonu, Sumqayıt və Gəncə şəhərləri üzrə 25 000 (iyirmi beş min) manat və 25 000 (iyirmi beş min) ABŞ dolları; digər şəhər və rayonlar, habelə Naxçıvan Muxtar Respublikası üzrə isə 10 000 (on min) manat və 10 000 (on min) ABŞ dolları miqdarında müəyyən olunması nəzərdə tutulmuşdur.

Fərmana əsasən, "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqini təmin etmək məqsədi ilə dövlət başçısı tərəfindən bir neçə istiqamətdə tapşırıqlar verilmişdir.

Belə ki, qarşıya qoyulan tapşırıqlar arasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının, eyni zamanda Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməsi öz əksini tapmışdır.

Bununla yanaşı, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası üç ay müddətində aşağıdakı normativ xarakterli aktları qəbul edib həmin aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verməsi qarşıya qoyulan məqsədlər arasında yer almaqdadır:

- "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin 5-ci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, valyuta əməliyyatlarının aparılması qaydasını;
- sözügedən Qanunun 3-cü maddəsinin 9-cu hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə razılaşdırmaqla, valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslər tərəfindən valyuta mübadiləsi əməliyyatları üzrə gəlirlərin və xərclərin uçotunun aparılması qaydasını;
- sözügedən Qanunun 13-1.1-ci maddəsinə uyğun olaraq, valyuta mübadiləsi fəaliyyətinə lisenziyanın alınması üçün ərizənin formasını;
- sözügedən Qanunun 13-9-cu maddəsinə uyğun olaraq, valyuta mübadiləsi fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydasını;
- sözügedən Qanunun 13-10.4-cü maddəsinə uyğun olaraq, girov vəsaitinin geri alınmasına dair rəyin formasını;
- valyuta mübadiləsi əməliyyatlarının aparılması qaydasında valyuta mübadiləsi əməliyyatlarının həyata keçirilməsi üçün təşkilati, texniki təchizat və təhlükəsizlik tələblərini, valyuta mübadiləsi əməliyyatları üzrə uçotun, hesabatın və sənədləşmənin vahid formalarını, onların təqdim olunması qaydasını və müddətlərini, valyuta mübadiləsi fəaliyyəti həyata keçiriləcək obyektlərin yerləşəcəyi əraziləri, habelə sözügedən Qanunun 13-1.2.9-cu maddəsində nəzərdə tutulan təsdiqedici sənədlərin siyahısını.

Eyni zamanda, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi və Maliyyə Bazarlarına Nəzarət Palatası ilə razılaşdırmaqla, yerli icra hakimiyyəti orqanları tərəfindən onlara aid inzibati ərazi vahidlərinin ərazilərində valyuta mübadiləsi fəaliyyəti həyata

keçiriləcək obyektlər üçün Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasına müvafiq yerlərin ayrılmasını bir ay müddətində təmin etmələri tapşırıqlar çərçivəsində həyata keçiriləcək tədbirlər arasında yer almaqdadır.

# ÖDƏMƏ QABİLİYYƏTİNİ İTİRMİŞ BANKLARIN REZOLYUSİYASI VƏ SAĞLAMLAŞDIRMA TƏDBİRLƏRİ ÇƏRÇİVƏSİNDƏ QEYRİ-İŞLƏK (TOKSİK) AKTİVLƏRİN TƏQDİM EDİLMƏSİ QAYDASI




Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış 2017-ci il 3 may tarixli Fərmana əsasən "Ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsi Qaydası" təsdiq edilmişdir.

Sözügedən Qayda Azərbaycan Respublikası Vergi Məcəlləsinin 164.1.36-cı maddəsinə əsasən hazırlanmışdır və ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsi qaydasını müəyyən etməkdədir. Burada ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsi "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həmin qeyri-işlək (toksik) aktivlərə mülkiyyət hüququnun, habelə həmin qeyri-işlək (toksik) aktivlərlə birlikdə təqdim olunan onlara dair təminata girov hüququnun özgəninkiləşdirilməsindən ibarətdir.

Bu Qaydanın məqsədləri üçün qeyri-işlək (toksik) aktiv dedikdə, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının normativ xarakterli aktlarına əsasən qeyri-standart aktiv kimi təsnifləşdirilmiş aktiv, habelə bu aktiv üzrə təminatlar başa düşülür. Əlavə olaraq, bu Qaydada istifadə olunan digər anlayışlar "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş mənaları ifadə edir.

Qeyri-işlək aktivlərin təqdim edilmə forması aşağıdakı qaydada həyata keçirilir:

• Qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsindən əvvəl bank tərəfindən həmin aktivlərin qeyri-işlək (toksik) aktivlər kateqoriyasına aid olması barədə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının rəyi alınır ki, nəzərdə tutulan rəy 20 (iyirmi) gün müddətində verilməlidir.

• Ödəmə qabiliyyətini itirmiş bankın rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsi Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş mülki-hüquqi müqavilələrə uyğun olaraq həyata keçirilir.

• Təqdim edilən qeyri-işlək (toksik) aktivlər digər aktivlərlə birlikdə təqdim olunursa, müqavilədə qeyri-işlək aktivlər barədə məlumatlar ayrıca qeyd olunmalıdır.

• Təqdim edilən qeyri-işlək (toksik) aktivlərin dəyəri müqavilə tərəflərinin qarşılıqlı razılığı əsasında müstəqil qiymətləndirici (müstəqil qiymətləndiricilər) tərəfindən müəyyən edilir.

• Qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsinə dair müqavilədə ən azı aşağıdakılar göstərilməlidir:

- müqavilənin tərəfləri, predmeti, məbləği;
- tərəflərin hüquq və vəzifələri, məsuliyyəti;
- qeyri-işlək (toksik) aktivlərə ödəmə qabiliyyətini itirmiş bankın mülkiyyət hüququnu yaradan müqavilənin tərəfləri, tarixi, nömrəsi.

Sözügedən Fərmana əsasən, dövlət başçısı tərəfindən təsbit edilmiş tapşırıqlar arasında, eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin aktlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərin hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi öz əksini tapmaqdadır. Bu Fərmandan irəli gələn digər məsələlərin həll edilməsi isə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən həyata keçiriləcəkdir.

# 2017 – Cİ İLDƏ AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT FONDUNUN VƏSAİTİNDƏN İSTİFADƏNİN ƏSAS İSTİQAMƏTLƏRİ (PROQRAMI) VƏ İNVESTİSİYA SİYASƏTİ




Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış 2017-ci il 12 may tarixli Fərmana əsasən "2017-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitindən istifadənin əsas istiqamətləri (proqramı) və investisiya siyasəti" təsdiq edilmişdir.

Təsdiq edilmiş Proqrama əsasən, Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitinin xərc istiqamətləri olaraq aşağıdakılar müəyyən edilmişdir:

- Qaçqınların və məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə bağlı bəzi tədbirlərin maliyyələşdirilməsi;
- Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinə transfert;
- Makroiqtisadi sabitliyin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Mərkəzi Bankına transfert;
- Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin maliyyələşdirilməsi;
- Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsi;
- 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının maliyyələşdirilməsi;
- Cənub Qaz Dəhlizi layihələrində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun investisiya siyasəti

Azərbaycan Respublikası Dövlət Neft Fondunun investisiya siyasətinin məqsədi 2017-ci ildə Azərbaycan Respublikasının Dövlət Neft Fondu (bundan sonra – Neft Fondu) tərəfindən əsas kapitalın itirilməsi riskinin aşağı olması şərtilə maksimum gəlirliliyin əldə edilməsinə imkan verən investisiya siyasətinin həyata keçirilməsidir.

Burada Neft Fondunun investisiya portfelinin 2017-ci il üzrə proqnozlaşdırılan məcmu dəyərinin isə (ortaçəkili həcmi) 51,24 milyard manata bərabər götürülməsi nəzərdə tutulmuşdur.

Neft Fondunun investisiya portfelinin baza valyutası ABŞ dolları müəyyən edilməkdədir. Neft Fondunun investisiya portfelinin məcmu dəyərinin minimum 90 faizinin beynəlxalq kredit agentlikləri tərəfindən verilmiş kredit reytinqi “A“ (Standart ənd Purz, Fiç) və ya “A2” (Mudiz) dərəcəsindən aşağı olmayan ölkələrin valyutalarında ifadə olunan aktivlərdə olması şərtilə məcmu dəyərinin:

- 50 faizi ABŞ dollarında ifadə olunan aktivlərə;
- 35 faizi avroda ifadə olunan aktivlərə;
- 5 faizi İngiltərə funt sterlinqində ifadə olunan aktivlərə;
- qalan 10 faizi isə digər valyutalarda ifadə olunan aktivlərə

yerləşdirilə bilər.

Neft Fondunun investisiya portfeli, eyni zamanda, aşağıdakı alt portfellərdən (bundan sonra – portfel) ibarətdir:

- borc öhdəlikləri və pul bazarları alətləri portfeli – aşağı uzaqlaşma intervalı maksimum 5 faiz olmaqla investisiya portfelinin məcmu dəyərinin 60 faizi (maksimum 5 faizə qədəri kredit reytinqinə malik olmayan borc öhdəliklərinə investisiya edən pay fondları olmaqla);

- səhm (pay) portfeli – investisiya portfelinin məcmu dəyərinin maksimum 25 faizi (maksimum 5 faizə qədəri səhmlərə investisiya edən pay fondları olmaqla);

- daşınmaz əmlak portfeli – yuxarı uzaqlaşma intervalı maksimum 2 faiz olmaqla investisiya portfelinin məcmu dəyərinin 10 faizə qədəri;

- qızıl portfeli – yuxarı uzaqlaşma intervalı maksimum 3 faiz olmaqla investisiya portfelinin məcmu dəyərinin 5 faizə qədəri.

İnvestisiya portfelinin hədəf gəlirliliyi

- Neft Fondunun borc öhdəlikləri və pul

(avro istisna olmaqla) üzrə dərc edilmiş 6 aylıq LIBOR faiz dərəcəsi əsas götürülür.

- Neft Fondunun borc öhdəlikləri və pul bazarları alətləri portfelinin avroda ifadə olunan aktivlərinin idarə edilməsində hədəf gəlirliliyi (bençmark) kimi 6 aylıq EURİBOR faiz dərəcəsi əsas götürülür.

- LIBOR dərəcəsi mövcud olmayan valyutalar üzrə hədəf gəlirliliyi kimi maliyyə bazarında banklar arasında 6 aylıq kreditlər üzrə ən geniş yayılmış faiz dərəcələri əsas götürülə bilər.

- Səhm (pay) portfelinin hədəf gəlirliliyi (bençmark) kimi MSCI Stock Market Indexes əsas götürülür.

Risklərin idarə olunması üzrə tələblər

Faiz dərəcəsi riski. Neft Fondunun borc öhdəlikləri və pul bazarları alətləri portfelinin faktiki ortaçəkili investisiya müddəti (durasiyası) dünya bazarındakı cari vəziyyətdən asılı olaraq Fond tərəfindən müəyyən edilir və 48 aydan artıq olmamalıdır.

Kredit riski. Neft Fondunun valyuta vəsaitinin yerləşdirildiyi investisiya aktivlərinin kredit reytinqi Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 511 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar”ın 3.3-cü bəndinin səkkizinci yarımbəndində nəzərdə tutulmuş qeyri-investisiya reytinqinə malik borc öhdəlikləri və təsisatlardakı depozitlər üzrə 5 faizlik xüsusi çəkinin yuxarı həddi üzrə tələblər Azərbaycan Respublikası Prezidentinin aktları ilə nəzərdə tutulan tədbirlərin icrası məqsədilə həyata keçirilən investisiya qoyuluşları nəticəsində Neft Fondunun investisiya portfelinə daxil olan aktivlərə tətbiq edilmir.

Əlavə olaraq, bir maliyyə qurumunun (depozitar banklar istisna olmaqla) və ya bir investisiya aktivinin investisiya portfelindəki maksimal xüsusi çəkisi investisiya portfelinin məcmu dəyərinin 15 faizi həddində müəyyən edilir.

Likvidlik üzrə tələblər. Neft Fondunun vəsaitinin likvidlik dərəcəsi Fondun büdcə xərcləri üzrə planlaşdırılan pul və digər köçürmələrinin tam və vaxtında yerinə yetirilməsini təmin etmək üçün yetərli səviyyədə olmalıdır. Bu səviyyəni təmin etmək məqsədilə Neft Fondunun vəsaitinin 100 milyon ABŞ dollarından az olmayan hissəsi yüksək likvidliyə malik qısamüddətli pul bazarları alətlərində saxlanmalıdır. Bu vəsaitin göstərilən məbləğdən az olması halı 7 iş günündən çox davam etməməlidir.

Xarici menecerlər üzrə tələblər. Cəlb edilən xarici menecerin özünün və ya onun əsas təsisçisinin kredit reytinqi beynəlxalq kredit agentliklərinin (Standart ənd Purz, Fiç və ya Mudiz) investisiya dərəcəli kredit reytinqindən aşağı olmamalı və ya onun aktivlərin idarə edilməsində ən azı 5 il müsbət təcrübəsi, yaxud dəyəri 1 (bir) milyard ABŞ dolları məbləğindən az olmayan aktivlərin idarə edilməsində səriştəsi olmalıdır.

Eyni zamanda, xarici menecerlərə idarəetməyə verilən vəsaitin ümumi həcmi investisiya portfelinin məcmu dəyərinin 60 faizindən, bir xarici menecerə idarəetməyə verilən vəsaitin maksimum həcmi investisiya portfelinin məcmu dəyərinin 5 faizindən artıq olmamalıdır. Neft Fondunun RAMP proqramı çərçivəsində Dünya Bankının xəzinədarlığına idarəetməyə verilən vəsaitinin həcmi 500 milyon ABŞ dollarından artıq olmamalıdır.

Burada onu da qeyd etmək lazımdır ki, Neft Fondunun vəsaitinin idarə edilməsinə cəlb edilən xarici menecerlərin səlahiyyətləri və idarəetməyə verilmə müddəti Neft Fondu ilə

bu menecerlər arasında bağlanan sazişdə əks etdirilməlidir.

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073

info@ereforms.org

(+994)12 5213318

/ iqtisadiislahat